Tarix və onun problemləri, № 3 2011

**JAFAR PAKNAZAR**[1],
**GHADER VAZIFEH DAMIRCHI**[2],
***(Department of consultation,***
***Parsabad Moghan Branch,***
***Islamic Azad University, Parsabad Moghan, Iran)***
***Jafar.paknazar8@yahoo.com***

# ŞAGİRDLƏRİN TƏHSİL İNKİŞAFINDA AİLƏNİN TƏLİMATLANDIRILMASININ ROLU

***Açar sözlər:*** Şagirdlər, təhsil inkişafı, övladların təhsili, təlimatın rolu
***Ключевые слова:*** *учащиеся, развитие обучения, обучение детей, роль подготовки.*
***Keywords***: *student, development of education, education of children, role of the trayning.*

Ailənin, övladların təhsilində çöx böyük payı olduğu üçün müasir dövrdə bu qurumun məktəblə yanaşı daha effektiv vasitəyə çevrilməsi və hər ikisinin qarşılıqlı əməkdaşlıq formasında fəaliyyət göstərməsi istiqamətində işlər aparılır. Bundan məqsəd isə şagirdlərin tərbiyəsinin keyfiyyətli və yaxşı olmasıdır ( 1s.98). “Ailə təlimatı kursları” ailə ilə məktəbin uyğunlaşması və şagirdlərin övladların tərbiyəsində rolunun artmasında mühüm rol oynaya bilər. Bu kurslar nəticəsində şagirdlərin təhsil inkişafı və onların düşüncəsinin inkişafına nail olmaq olar (2 s557).

Şagirdlərin təhsil inkişafında digər mühüm amillərdən biri də məktəb müəllimləri və kolletivi ilə valideynlər arasında əlaqənin yaradılmasıdır. “Ailə təlimatı kursları”- nda iştirak bu əlaqənin bariz nümunəsidir. Müşahidələrə görə valideynin məktəblə ünsiyyəti çoxaldıqca onların övladlarının təhsil vəziyyəti də yaxşılaşmağa başlayır (3 s67).

Beygdel və əməkdaşlarının araşdırmalarına görə (1997), “Ailə təlimatı kursları” valideynin pedoqoji biliklərini artırır və valideynin övladları ilə olan ünsiyyətinin islah edilməsinə gətirib çıxarır. Hətta bu ailələrin psixoloji sağlamlığı da bu kurslarda iştirak etməyən valideynlərə nisbət yüksək səviyyədədir.(4 s54)

Valideyn “Ailə təlimatı kursları”- nda iştirak etməklə şagirdlərin təhsil və davranışlarında olan problemlərlə mübarizə aparmaqla tanış olur ki, bu cür təlimatın nəticəsi isə şagirdlərin təhsil inkişafının artırılmasına xidmət edir .
(5 s39).

Valideynin kitab mütaliəsinə üstünlük verdiyi və “Ailə təlimatı kursları” - nda iştirak edən valideynin uşaqları onların bu davranışalrını gördükdən sonra kitab mütaliələrinə meyilləri artmağa başlayır (6 s235).

“Ailə təlimatı kursları”- nda iştirak edən ailələlərin 77 % -i, və şagirdlərin oxuduğu məktəbin direktorların 60%-i ailənin təlimat görməsinin şagirdlərin dərs sahəsində olan bir çox problemlərinin azalmasına gətirib çıxardığını etiraf etmişlər.(7 s56)

Ailə təlimatı kursları İsfahan məktəb direktorları, uşaqlar və valideynlərinin diqqət mərkəzində olmuşdur. Belə ki, valideynlərin 90%- i ailə təlimatı kurslarının keçirilməsinə meyilli insanlardır. Həmin valideynlərin bildirdiyinə görə ailə təlimatı kursları əlaqələrin yaxşılaşmasına və şagirdlərin təhsil inkişafına öz müsbət rolunu göstərməkdədir. (8 s49)

Yenə də Məhəmmədxaninin “vaideynlərin təlim ehtiyaclarının təmin edilməsində ailə təlimi kurslarının effektlik miqdarı haqqında Tehran şəhərinin şagird valideynlərinin düşüncələrinin araşdırılması” adlı məqaləsində göstərilir ki “bir çox valideynlər bu siniflərdə iştirak edən valideynlərin təhsil ehtiyclarının yerinə yetirilməsində ailə təlimatı kurslarının təsirinin rolunu müsbət dəyərləndirir və xüsusi ilə də analar davamlı olaraq bu təlimat kurslarında iştirak edirlər”(7 s98).

Habel Nurinin (1996, Kərimidən iqtiabsla 1997) “Toysərkan ibtidai təhsil pilləsinin oğlan və qız uşaqlarının təhsil inkişafına ailə təlimatının təsiri” adlı araşdırmasında göstərilir ki, 36 saatlıq ailə təlimatı kurslarında iştirak edən valideynlər ilə onların övladının təhsil inkişafı arasında birbaşa

---

[1] Jafar PakNazar (PHD), Academic Member of Islamic Azad University Parsabad Barnch
[2] Corresponding Author: Ghader Vazifeh damirchi (M.A), Academic Member of Islamic Azad University Parsabad Barnch

əlaqə vardır.
(7 s67)

Araşdırma üzrə aidiyyəti mənbələrə diqqət etdikdə görürük ki, valdeynlərə bu tip təlimat kurslarını müsbət qarşılamaqla yanaşı bəlkə bu cür kurslarda iştirak etmək övladlarının təhsil probelmlərinin həll edilməsində valideynin məlumatını artırmağa başlayır və şagirdlərin təhsil durumunun yaxşılaşmasına səbəb olur. Araşdırmadan əldə edilən nəticələrə görə bu araşdırmanın əsas sualı belədir "ailə təlimatı kurslarında iştirak edən şagirdlərin təlim vəziyyəti ailə təlimatı kurslarında iştirak etməyən valideynlərin uşaqları ilə nisbətdə yaxşdırımı?" Habelə bu araşdırmada belə bir sualın da cavabı araşdırılmağa başlayır ki, "valideynlərin bu tip ailə təlimatı kursalrına qarşı olan münasibəti necədir?".

**Metod:**

Bu ailə təlimatı kurslarının əhəmiyyətini övladların təhsil inkişafında olan əhəmiyyətini göstərmək və ailə təlmatı kurslarının şagirdlərinin təhsil durumunun yaxşılaşmasına səbəb olmasını göstərmək üçün valideynləri Xəlxal və Kövsər şəhərlərində yaşayan və təlimat kurslarında iştirak edən 207 nəfər beşinci sinif şagirdlərini təsadüfi seçmə yolu ilə araşdırma qrupu kimi təyin etdik. Həmin sayda valideynləri təlim kurslarında iştirak etməyən şagird seçildi. Onların təhsil üzrə yekun qiymələri sənədlərdən götürülməklə yanaşı müəllim tərəfindən tarix, mədəniyyət, coğrafiya, riyaziyyat, elmlər və din ixtisası üzrə sınaq imtahanları götürüldü. Bundan əlavə ailə təlimatı kursları barəsində valideynlərin nəzərini ölçən 31 sualdan ibarət anket hazırlandı. Onların etibarlıq dərəcəsi isə Koronbax Alfa əmsalından itifadə edilərk 0/72 olaraq müəyyən edildi. Deməli mövzunun mahiyyətinə görə müqayisəyə əsaslanan araşdırma metodundan istifadə edildi. Habelə hər iki qrupda müstəqil formada orta miqyasdan istifadə etməklə dəyişənlərin ölçülmə səviyyəsi və araşdırma fərziyyələri nəzərə alınmaqla həyata keçirilmişdir.

**Nəticələr:**

Cədvəl № 1: Ailə təlimi kurslarının təsiri barəsində valideynlərin nəzəri

| № | Paraqraf | Heç | | Kəmiyyət | | Müəyyən həddə | | Çox | | Çoxlu | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | F | P | F | P | F | P | F | P | F | P |
| 1 | Ailələrin bu kursları qarşılamaq səviyyəsi | 15 | 5/7 | 54 | 20/4 | - | - | 164 | 55/5 | 49 | 18/5 |
| 2 | Ailə təlimatı kurslarından valideynin razı qalması | 10 | 3/8 | 36 | 13/6 | - | - | 148 | 55/8 | 70 | 26/4 |
| 3 | Valideynlərin məktəblə ünsiyyət miqdarı | 9 | 3/4 | 105 | 49/6 | - | - | 120 | 45/3 | 31 | 11/7 |
| 4 | Ailə vasitəsi ilə övladların dərs vəziyyətinə nəzarətin | 6 | 2/3 | 11 | 4/2 | 130 | 49/1 | 96 | 36/2 | 21 | 7/9 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | artması | | | | | | | | | | |
| 5 | Valideynlərin övladlardan yesiz intizarının azalması | 12<br>9 | 48/<br>7 | 10<br>2 | 38/<br>5 | - | - | 23 | 8/7 | 1<br>0 | 3/8 |
| 6 | Valideynlərin mütaliə müddətinin artırılması | 17 | 6/4 | 11<br>3 | 42/<br>6 | - | - | 10<br>5 | 39/6 | 2<br>8 | 10/6 |

Bir nömrəli cədvəldə qeyd edilən nəticələr göstərir ki, ailələrin 74 % -i ailə təlimatı kurslarını çox və çoxlu miqdarda qəbul etmişlər. 82 % ailələr bu kurslar barəsində çox və çoxlu məmnunluq hissi keçirdiyini bildirmişlər. Habelə 56% ailələr öznün məktəblə olan ünsiyyətini çox və çoxlu olaraq artırdıqlarını qeyd etmişlər. Hətta bu krslar təşkil edildikdən sonra valideynlər övladlarının təhsil ilə bağlı daha çox maraqlandıqlarını bildirmişlər.

2 № cədvəl. Bu təlim kurslarında valideynləri iştirak edən və etməyən şagirdlərin müxtəlif fənnlər üzrə təhsil qiymətlərinin bir- biri ilə müqayisəsi.

| № | Fənnin adı | Qrupların adı | Orta qiymət | Meyardan yayınma | t | Əhəmiyyət səviyyəsi |
|---|---|---|---|---|---|---|
| 1 | Təhsil sənədinə əsasən təhsil üzrə orta qiymət | Təlimat görən ailə | 2/46 | 17/049 | 3/42 | 0/001 |
| | | Təlimat görməyən ailə | 2/85 | 16/29 | | |
| 2 | Dini | Təlimat görən ailə | 4/01 | 13/7 | 5/4 | 0/000 |
| | | Təlimat görməyən ailə | 4/27 | 11/74 | | |
| 3 | Tarix və mədəniyyət | Təlimat görən ailə | 4/02 | 12/94 | 2/5 | 0/012 |
| | | Təlimat görməyən ailə | 4/46 | 12 | | |
| 4 | Coğrafiya | Təlimat görən ailə | 6/86 | 13/65 | 4/86 | 0/000 |
| | | Təlimat görməyən ailə | 4/69 | 11/17 | | |
| 5 | Riyaziyyat | Təlimat görən ailə | 4/23 | 14/06 | 10/78 | 0/000 |
| | | Təlimat görməyən ailə | 4/30 | 10/06 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | Elmlər | Təlimat görən ailə | 4/14 | 15/48 | 4/02 | 0/000 |
| | | Təlimat görməyən ailə | 4/57 | 13/95 | | |
| 7 | Yuxarıdakı beş fənn üzrə orta qiymət | Təlimat görən ailə | 3/01 | 13/97 | 8/5 | 0/000 |
| | | Təlimat görməyən ailə | 2/84 | 11/78 | | |

2 № cədvələ baxdıqda iki müstəqil qrup üzrə orta müqayisədən istifadə etməklə faktların təhlili göstərir ki, valideynlər təlimat kurslarında iştirak edən şagirdlərin orta qiyməti bu kurslarda iştirak etməyən şagidlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərq həm onların yekun imtahan qiymətlərində və həm də müəllimlər tərəfindən keçirilən sınaqlarda öz əksini tapır. Habelə dini, tarix və mədəniyyət, coğrafiya, riyaziyyat və elmlər fənnləri üzrə iki müstəqil qrup arasında fərq nəzərə çarpır. Bu fərq isə valideynləri təlim kurslarında iştirak edən şagirdlərin xeyrinədir.

**Nəticə:**

Bu araşdırmanın suallarından biri də "valideynin ailə təlimatı kurslarının keçirilməsinə nisbət mövqeyi necədir və bu kursların hansı həddə faydalı olmasını hesab edir". Nəticələrə görə ailələr, ailənin təlimat kursunu müsbət qarşılamaqla yanaşı onlar həmin kurslardan razı qaldıqlarını bildirmişlər. Valideynlərə görə ailə təlimat kursları onların məktəblə daha sıx ünsiyyətdə olmasına və övladlarının təhsili maraqlanmasına səbəb olmuşdur. Bu nəticə Qoldari Kupayının (5 s178) əldə etdii nəticələrlə oxşardır. Beləki, bu araşdırma işində həm valideyn və həm də direktorlar ailə təlamatı kurslarının ailələrin məktəbə aid işlərdə aktivliyinə səbəb olduğunu, valideynlərin tərbiyəçilər ilə sıx təmasda olduğunu vurğulamışdılar. Araşdırmanın üçüncü sualı bundan ibarət idi ki, görəsən valideynləri təlimat kurslarında iştirak edən şagirdlərin təhsil durumu valideynlərinin bu təlim kurslarında iştirak etməyən şagirdlərin durumundan yaxşıdırmı? Araşadırmalara görə iki qrup arasında riyaziyyat, elmlər, dini, coğrafiya, tarix və mülki dərslər sahəsində əhəmiyyətli dərəcədə fərq müşahidə edilmişdir. Yəni valideynləri ailə təlim kurslarında iştirak edən şagirdlər etməyənlərlə müqayisədə təhsil durumları daha yaxşı idi. Bu məlumatların Nuri və Məhəmmədxaninin araşdırmalarının nəticələri (1997) ilə oxşarlığı çox idi. Çünki onların araşdırmasından görsəndiyi kimi valideynin təlimat kurslarında iştirakının övladlarının təhsil sahəsində inkişafı ilə sıx surətdə əlaqəsi vardır. Bu kursların necə təsir etməsinə gəldikdə isə demək olar ki, ailə təlimatı kurslarında validcynlər araşdırmanın metodu və məsələlərin həlli üslubları ilə tanış olduqları üçün övladları üçün rahat bir mühit hazırlayırlar. Hətta övladlarına qarşı sosial himayələrini artırır və bunun müqabilində isə övladdan az şey umurlar. Bu amillər isə təbii ki, şagirdin təhsil durumuna öz müsbət təsirini görtərir (9 s78).

## ƏDƏBIYYAT

1. Əbbasi, İsa. (1996). "Övladların təhsil inkişafında valideynin rolu". Bakalavr təhsil dərəcəsi alması üçün Diplom işi.
2. Safi, Əhməd (1998), "ailə təhsilinin əhəmiyyət və zərurəti və bu sahədə məktəb direktorlarının rolu", Peyvənd jurnalı, № 224 (s. 577)
3. Biyabangərd, İsmail (1999). "təhsildən yayınmanın qarşısının alınma metodları". Tehran, valideyn və tərbiyəçilər dərnəyinin nəşri
4. Beygdel, Afaq. Xanməhəmmədi, Fatimə. Fərəhməndi Bafi, Mərziyyə. (1995). "Valideynlərin təhsil proqramlarının onların pedoqoji məlumatlarına təsirinin tədqiqi". Elmi rəhbər Tacik, doktor Əzizullah.
5. Rəsulzadə Təbatəbai, seyyid Kazim (2000), "müdirlər, müəllimlər və valideynlər nəzərindən

ailə təhsil siniflərinin kəmiyyət və keyfiyyətinin qiymətləndirilməsi və bu siniflərin valideyn baxışlarının dəyişilməsinə təsiri. Araşdırma, əsas əməkdaş: Əhmədi, Cəmşid.
6.Əfruz, Ğulaməli, Tabestan (1993), "kitab və kitab oxumaq mədəniyyəti", Peyvənd jurnalı, № 165 (s. 235), 166 (s. 280) və 167 (s. 315). Tehran, valideyn və tərbiyəçilər dərnəyinin nəşri
7.Kərimi, Əbdur- rəsul (1997). "Tehran şəhərində valideynlərin pedoqoji məlumatlarının miqdarına ailə təhsil sisniflərinin təsirinin araşdırılması". Tehranın təhsil araşdırmaları şurası.
8.Məhəmmədxani, Keyhan (1996). "Şagirdlərin təhsil tələbatlarının yerinə yetirilməsində ailə təhsil proqramlarının effektivlik səviyyəsi barəsində Tehran şəhər şagirdlərinin valideynlərinin baxışlarının tədqiqi". Şəhid Beheşti univeristeti, psixologiya və pedoqoji elmlər fakültəsi.
9.Cəhangəd, Yədullah, (2000), "valideynlərin övladlar ilə davranış forması", Tehran, altıncı çap, valideyn və tərbiyəçilər dərnəyinin nəşri

**JAFAR PAKNAZAR,**
**GHADER VAZIFEH DAMIRCHI,**
***(Department of consultation, Parsabad Moghan Branch, Islamic Azad University,Parsabad Moghan,Iran)***
***the post-graduate student of chair***
***Jafar.paknazar8@yahoo.com***

The existence of relation and coordination between parents, teachers and instructors causes improvement in the education of students, attending in this kind of education classes shows the real appearance of this relation and it shows as this relation grows the education condition improves too.

The classes of family education increase the parent's knowledge and lead to the correction of parents behavior with their children.

**ДЖАФАР РАК НЕЗЕР,**
**ГХАДЕР ВАЗИФЕ ДАМИРЧИ,**
***отдел консультирования,***
***Университет Азад ислам, Парсабад Мугань, Иран***
***Jafar.paknazar8@yahoo.com***

## РОЛЬ ИНСТРУКТАЖА РОДИТЕЛЕЙ В УЛУЧШЕНИИ ОБУЧЕНИЯ УЧАЩИХСЯ

В улучшении обучения учащихся большую роль играет налаживание связей между школьными учителями и родителями. Курсы семейного инструктирования являются этому наглядным примером. Согласно проведенному наблюдению, чем теснее связь родителей со школой, тем лучше показатели детей по учебе. Курсы семейного инструктирования повышают уровень педагогических знаний и помогают улучшению межличностных отношений.

***Rəyçi: t.ü.f.d. R.Cabbarov, t.e.d. A.C. İsgəndərov.***